Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
15 iyun 2023- cü il


# Redaksiyadan

**Xalq şairi, xalqımızın sevimlisi Nəriman Həsənzadənin Ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə həsr etdiyi - "Mənim ədəbi taleyim-Zamanla, tarixlə görüş" adlı kitabını bu sayımızdan başlayaraq qəzetimizdə çap edirik. Bu kitab təkcə ulu öndər Heydər Əliyenin yox, həm də böyük dövlət xadimi, Azərbaycan üçün çox işlər görmüş Nəriman Nərimanovun və elə Xalq şairi Nəriman Həsənzadənin özünün də həyatına həsr olunub. Ümumiyyətlə, yaxşı, xeyirxah insanların bir zamanlar Nəriman Həsənzadəyə və Azərbaycan ədəbiyyatına elədyi köməkliklər bu kitabda özünün gözəl əksini tapıb.**

**Əziz oxucular inanırıq ki, bu yazılar sizin xoşunuza gələcək və Nəriman Nərimanova çamur, çirkab atan adanlara da bir görk və layiqli cavab olacaq.**

# Mənim ədəbi taleyim - zamanla, tarixlə görüş

## *(Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə)*

***(Əvvəli ötən saylarımızda)***

Qısaca deyim ki, Heydər Əliyev o məqaləni oxuyandan sonra Respublika Ali Məhkəməsinin sədri mərhum Abdulla İbrahimova zəng vurub tapşırıq vermişdi ki, bu məsələni araşdırsın.

O da mənə, redaksiyaya zəng vurdu. Biz görüşdük. Fəhlə buraxıldı.

Mərhum Abdulla İbrahimov deyirdi ki, Ali Məhkəmənin qərarı Ali Sovetin qərarı ilə eyni qüvvədədir. Sizin qəzetin çıxışından sonra biz kollegiyanın qərarını ləğv etdik.

Əlbəttə, ikimiz də başa düşürdük ki, bütün bunlar Ulu öndərin millətə qayğısıydı.

Bir həftə sonra mənim yanıma, xəstəxanaya öz həyat yoldaşı ilə ucaboy bir cavan gəldi. Həmin fəhlə oğlan idi.

Razılıq edib deyirdi ki, türmədə bütün dustaqlar Heydər Əliyevə pənah gətirir. Onu "Xilaskar" adlandırır və Azərbaycan KP MK-ya dustaqların adından teleqramlar gedir.

***

Yazıçı dostlarımız da, oxucularımızın yaşlı nəsli də etiraf edərlər ki, qəzetimiz çox böyük kütləvi tirajla çap olunurdu, oxucuların sevimli qəzetlərindən idi.

Heydər Əliyev də sonralar, yazıçılarla görüşlərinin birində demişdi ki, mən Moskvada işlədiyim vaxtlarda (Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyirdi) Bakıdan ancaq "Ədəbiyyat və İncəsənət" qəzetini alıb oxuyurdum.

Qəzeti iri formatda, həftədə bir dəfə, səkkiz səhifə buraxırdıq.

Biz hətta Sovet dövrü kiril əlifbasından əlavə, qəzetimizi latın qrafikası ilə Türkiyə üçün, əski əlifbada isə Cənubi Azərbaycan üçün də buraxmağa başlamışdıq.

Bunun ardınca qərara gəlmişdik ki, qəzetin ayrıca kitabını da nəşredək. Redaksiyanın öz gəliri hesabına kvartalda bir dəfə 48 səhifəlik kitablar buraxmağı da planlaşdırmışdıq.

Lakin işlərimiz yarıda qaldı. Yazıçılar İttifaqının katibliyindən bildirdilər ki, "Ədəbiyyat və incəsənət" qəzeti Azərbaycan KP MK-nın Bürosunda müzakirə olunacaq. İndi bəlkə də bu, sadə görünür. Ancaq o zaman qəzetin Büroya çıxarılması həm məsuliyyətli, həm də riskli bir hadisəydi.

Cəmi altı ay idi ki, qəzetin Baş redaktoru vəzifəsində işləyirdim. Ancaq Büroya nədənsə qəzetin üç illik müzakirəsi çıxarılmışdı. Gündəlikdə məsələnin adı beləydi: "XXY partiya qurultayı və qarşıda duran vəzifələr".

"Ədəbiyyat və incəsənət" partiya qəzeti deyildi, sahə qəzeti kimi iki yaradıcılıq təşkilatının: Azərbaycan Yazıçılar İttifaqının və Respublika Mədəniyyət Nazirliyinin orqanıydı.

Müzakirə zamanı Büro üzvləri və Büroya dəvət olunan yazıçılar (qəzeti oxuyan, oxumayan) dedilər ki, qəzet zəif çıxır. Hətta Yazıçılar İttifaqının birinci katibi də bu fikirdə olduğunu bildirdi.

Ümumi mənzərə aydın idi.

Sözü mənə verəndə, dedim yoldaş Əliyev, beş dəqiqə müddətində (reqlment beləydi) sözümü bilmirəm, haradan başlayım, harada bitirim.

Yəqin mənə qarşı olan bu "yekdilliyi" həssaslıqla hiss etmişdi.

İstədiyin qədər danış,- dedi.

Mənim qəzetdə baş redaktor vəzifəsində işlədiyim vaxtdan cəmi altı ay keçdiyini, müzakirəyə isə qəzetin üç illik fəaliyyətinin qoyulmasını dedim. Redaksiya və qəzetin ehtiyaclarından danışdım. Heç bir şəraitin olmadığını, hətta stolların və stulların belə köhnə, sınıq-salxaq olduğunu açıqladım. Əslində redaksiya işçilərinin dediyi sözləri çatdırırdım.

İttifaqın rəhbərliyi etiraz etdi.

Mərkəzi Komitənin Bürosu stol, mebel yeri deyil, - dedi. - Ola bilsin "İzvestiya"nın (o vaxt Moskvada nəşr olunan mərkəzi qəzet idi) stolu, mebeli yoxdu, amma o cürə qəzet buraxırlar.

Heydər Əliyev cavab verdi.

Bəs harda desin? - Ona adıyla, soyadıyla birgə müraciət etdi.

Müzakirə gərgin keçirdi.

Hamı Birinci katibin son qərarını gözləyirdi...

Hardansa mənim yadıma Nitşenin bir fikri gəlib düşmüşdü: gördün ki, biri yıxılır, sən də arxadan itələ, qoy tez yıxılsın.

Konfusi başqa söz deyirdi: özünə rəva bilmədiyini başqasına da rəva bilmə.

Altı ay əvvəl Heydər Əliev məni Baş redaktor vəzifəsinə təyin edəndə demişdi ki, siz gərək özünüz bir-birinizə xeyirxah olasınız.

Ən böyük xeyirxahlığımız ayağa qalxdı, adəti üzrə kostyumunun yaxasını və qalstukunu düzəltdi.

Mən "Ədəbiyyat və incəsənət" qəzetini oxuyuram, - dedi. - Qəzet yaxşı çıxır.

Ortaya dərin bir sükut çökdü...

***

Qədim Yunan sərkərdəsi Aqesilaydan soruşurlar ki, ədalət yaxşı şeydi, yoxsa igidlik? O, ədaləti igidliklə bərabər tutur, -"Bizdə ədalət olsaydı, - deyir - igidlik bizim nəyimizə lazım idi".

Mən bunu Büro iclasında gördüm. Bizim qəzetin müzakirəsində ədalət zəfər çaldı. Çünki Heydər Əliyev ordaydı. O olan yerdə də ədalət olurdu.

Heydər Əliyev istər yüksək səviyyəli dövlət tədbirləri olsun, istərsə də ədəbi görüşlər həmişə insanların yanındaydı.

O olan məclislərə bizi dəvət edirdilər. Əslində özü yaradıcı adamlarla görüşmək, danışmaq, vəziyyətini öyrənmək, kömək etmək istəyirdi. Onun bu sevgisinə hər kəs öz sevgisilə cavab verirdi.



***(Ardı var)***

**Nəriman HƏSƏNZADƏ**